# "Qərbi Azərbaycana qayıdışın ideoloji əsasları: Heydər Əliyev irsində Qərbi Azərbaycan məsələsi" adlı tədbir



*Yeni Azərbaycan Partiyası Yasamal Rayon Təşkilatı, Yasamal Rayon İcra Hakimiyyəti, Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəlməsinin 56-cı ildönümünə həsr olunmuş "Qərbi Azərbaycana qayıdışın ideoloji əsasları: Heydər Əliyev irsində Qərbi Azərbaycan məsələsi" mövzusunda tədbir və "Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının I cildinin təqdimat mərasimi keçirilib.*

Tədbirdə YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, Qərbi Azərbaycan İcması Müşahidə Şurasının sədri Misir Mərdanov, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin Gənclər və idman komitəsinin, Qərbi Azərbaycan İcması Gənclər Şurasının sədri Şahin İsmayılov, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının direktoru Elviz Qasımov, Qərbi Azərbaycan İcmasının Yasamal rayonu üzrə nümayəndəsi Tahir Məmmədov, Yasamal rayon təşkilatının, Yasamal Rayon İcra Hakimiyyətinin əməkdaşları, YAP Yasamal rayonu ərazi partiya təşkilatlarının sədr, sədr müavinləri və Qərbi Azərbaycan İcmasının üzvləri iştirak ediblər.

Tədbirin rəsmi hissəsindən öncə tədbir iştirakçıları tərəfindən Yasamal rayonu ərazisində yerləşən Şəhidlərin Xatirə Kompleksi ziyarət olunub, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirələri anılıb. YAP Yasamal rayon təşkilatının inzibati binasında yerləşən ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb, xatirəsi dərin ehtiramla yad edilib.

Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəlməsinin 56-cı ildönümünə həsr olunmuş "Qərbi Azərbaycana qayıdışın ideoloji əsasları: Heydər Əliyev irsində Qərbi Azərbaycan məsələsi" mövzusunda videoçarx təqdim edilib.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev qeyd edib ki, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması Azərbaycan dövlətçiliyinin ideoloji əsaslarının, müasir geosiyasi çağırışlara cavab verən milli mövqeyimizin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. 1969-cu ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəlməsini və həmin ilin avqust ayında keçirilən plenumu bu kontekstdə təhlil etdikdə, həmin tarixi hadisənin xalqımızın gələcəyi üçün dönüş nöqtəsi olduğunu görürük. Plenumda qəbul edilmiş beş strateji qərar - sənayeləşmə, kənd təsərrüfatının modernləşdirilməsi, milli kadrların yetişdirilməsi, elmin və mədəniyyətin inkişafı, milli özünüdərkin gücləndirilməsi Azərbaycanda ideoloji yüksəlişin və siyasi sabitliyin bünövrəsini təşkil etdi. Məhz bu təməl prinsiplər 1993-cü illin ortalarından sonra müstəqil Azərbaycan üçün siyasi və ideoloji dayağa çevrildi. Ulu öndərin dövlətçilik konsepsiyasında Qərbi Azərbaycan məsələsi yalnız tarixi yaddaşın bir hissəsi deyil, həm də milli-siyasi suverenliyin ayrılmaz tərkib hissəsi kimi təqdim olunurdu. Dahi lider Qərbi Azərbaycandan deportasiya olunan soydaşlarımızın hüquqlarını daim gündəmdə saxlayır, onların qayıdış hüququnu beynəlxalq hüquq normaları çərçivəsində müdafiə edirdi. Bu ideoloji xətt bu gün Prezident İlham Əliyev tərəfindən strateji səviyyədə davam etdirilir. "Qərbi Azərbaycan İrsi" kitabının I cildi Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli şəkildə dağıdılması faktlarının toplanması, beynəlxalq hüquq normalarının pozulması faktlarının sənədləşdirilməsi, həm də Ermənistanın mədəni soyqırım siyasətinin ifşası baxımından siyasi əhəmiyyət daşıyır. Bu sənədlər Azərbaycanın beynəlxalq tribunalarda haqlı mövqeyini sübut edən dəlillər bazasını təşkil edir. Bu baxımdan həm 1969-cu il tarixli plenumun siyasi-ideoloji mirası, həm də bugünkü Qayıdış strategiyası bir-birini tamamlayan dövlətçilik fəlsəfəsinin tərkib hissələridir.

Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov və Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, Qərbi Azərbaycan İcması Müşahidə Şurasının sədri Misir Mərdanov bildiriblər ki, Azərbaycanın müasir tarixində 14 iyul 1969-cu il - ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə başlayan yeni dövr milli özünüdərkin və dövlətçiliyin əsasını qoydu. Bu dönüş nöqtəsi xalqın kimliyinə, milli ideyalarına və itirilmiş haqlarına qayıdışın ideoloji təməlini yaratdı. Ulu öndər Heydər Əliyev Qərbi Azərbaycan məsələsini daim prioritet mövzu kimi gündəmdə saxlayaraq bu bölgədən deportasiya olunan soydaşlarımızın hüquqlarının müdafiəsini dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirdi. Bu gün onun siyasi və ideoloji irsi Prezident İlham Əliyevin rəhbərliyi ilə qətiyyətlə davam etdirilir. Prezident İlham Əliyevin "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası"nı təsdiq etməsi, bu sahədə Dövlət Komissiyasının yaradılması tarixi ədalətin bərpası istiqamətində strateji addımdır. Bu qətiyyətli siyasət Ulu Öndərin ideyalarının real nəticələr verməsinin bariz sübutudur. Ümummilli Liderin ilk dəfə hakimiyyətə gəlməsinin 56-cı ildönümü münasibətilə keçirilən tədbir tarixi yaddaşın qorunması baxımından mühüm əhəmiyyət daşıyır. Tədbir çərçivəsində "Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının I cildi təqdim olunub. Nəşr sübut edir ki, Ermənistan təkcə işğalçı deyil, həm də mədəni irsə qarşı soyqırımı həyata keçirən dövlətdir. Qəbiristanlıqların dağıdılması xalqın yaddaşına, tarixinə və mənəviyyatına qarşı vandalizm aktıdır. Bu faktlar Azərbaycanın haqlı mövqeyini daha da gücləndirir. Qərbi Azərbaycan ideyası artıq strateji dövlət xəttinə çevrilib. Bu, həm də ulu öndər Heydər Əliyevin gələcəyə ünvanladığı milli çağırışın reallaşması deməkdir. 56 illik siyasi irsin bu gün də aktual qalması dövlətçilik ənənələrinin möhkəmləndirilməsinin nəticəsidir. Tədbir həm də yeni nəsillərə milli tarixin, yaddaşın və ideoloji mübarizənin təbliği baxımından mühüm tribuna rolunu oynayır. Ulu öndər Heydər Əliyev ideologiyası bu gün də yolumuza işıq tutur. Azərbaycan xalqı öz liderlərinin müəyyən etdikləri strateji xətt üzrə inamla irəliləyir. Tarixə, yaddaşa və hüquqa əsaslanan bu yol qələbə və qayıdış yoludur.

Sonra "Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının I cildinin təqdimat mərasimi ilə əlaqədar videoçarx nümayiş olunub.

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı, Musa Quliyev, Qərbi Azərbaycan İcması Gənclər Şurasının sədri Şahin İsmayılov, YAP Yasamal rayonu "Z.Xəlilov küç. 33" (BDU) ünvanı üzrə ərazi partiya təşkilatının sədri, Hüquq Komissiyasının və Böyük Qarakilsə rayon icmasının sədri Zahid Cəfərov və Yasamal rayon bələdiyyəsinin sədri, Qərbi Azərbaycan İcmasının Yasamal rayonu üzrə nümayəndəsi Tahir Məmmədov vurğulayıblar ki, ulu öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəlişi milli oyanışın, strateji dövlətçilik təməlinin və ideoloji birliyin əsasını qoydu. Bu hadisənin 56-cı ildönümü ölkəmizdə təkcə bir tarix deyil, həm də dərin mənəvi və ideoloji məna daşıyır. Ümummilli Liderin milli yaddaş, tarix və ərazi məsələlərinə verdiyi önəm Qərbi Azərbaycanla bağlı konseptual yanaşmasında da aydın görünür. Ulu Öndər hesab edirdi ki, xalqın kökü olduğu torpaqlardan zorla qovulması beynəlxalq hüquq qarşısında ciddi məsuliyyət tələb edir. Bu gün bu ideoloji xətt cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezidentin rəhbərliyi ilə Qərbi Azərbaycana qayıdış məsələsi dövlət strategiyasına çevrilmişdir. Dövlət başçısının təşəbbüsü ilə təsis edilən Qayıdış Konsepsiyası bu istiqamətdə konkret və real addımların atılmasına şərait yaradır. Məhz bu çərçivədə təqdim olunan "Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının I cildi aktuallığı ilə seçilir. Prezident İlham Əliyev dəfələrlə bu məsələyə toxunaraq bildirmişdir ki, Azərbaycan heç vaxt bu faktları unutmayacaq və bu hüquqların bərpası üçün sonadək mübarizə aparacaq. Kitabda təqdim edilən sübutlar təkcə tarix deyil, həm də gələcək üçün məsuliyyət çağırışıdır. Bu gün Azərbaycan dövləti həm diplomatik, həm hüquqi, həm də ideoloji müstəvidə bu məsələdə ardıcıl və prinsipial mövqe tutur. Ulu öndərin 56 il əvvəl başlatdığı siyasi xətt Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni mərhələyə qədəm qoyub. Bu, sadəcə bir davamlılıq deyil, bu, ideoloji möhkəmlik və dövlətçilik təfəkkürünün nümunəsidir. Qərbi Azərbaycana qayıdış tarixi ədalətin, milli kimliyin və ideoloji qürurun bərpasıdır. Tədbir isə bu ideologiyanın təbliği və gələcək nəsillərə ötürülməsi baxımından mühüm siyasi hadisədir.

Çıxışlardan sonra fəxri fərmanlar, hədiyyələr və partiya sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**